ədalət.- 2021.- 5 iyun.- S.12.



Şəfəq Nasir

# Gözəllik... Səmimiyyət... Etiraf...

## Məni yaşadan işıq

Esse

İnsanlarda görmək istədiyim ümdə cəhət mənəvi gözəllik, zənginlikdir. Həyat bizi problemlərlə yükləsə, dəyərlər sozalıb itsə, pul, var-dövlət ölümdən savayı hər şeyi həll etməyə qadir olsa belə, hələ də mənəvi gözəlliyə aşiqəm. Bu sevgimdə ölənəcən varam. Məndən ötrü digər xüsusiyyətlər bundan sonra gəlir. Ali varlıqda hissi, duyğunu, istəyi, sevgini oyadan da ilk növbədə mənəvi zənginlikdir. İnsanların bir-birini fikrən duyması, anlaması, mənəviyyatca tən gəlməsinin özü də sevgilərlə süslü olan gözəllikdir. Əgər bunlar yoxdursa, izdivacda olan qadınla kişinin də bir-birinə bağlılığı ola bilməz! Ən şirin anlar, odlu şəhvət hissi də ötəridirsə... yaşandı, keçib getdi, unuduldu... Demək ki, insanı həyatda duyğusallıqla yaşadan, aləmi gözündə cazibədar edən də mənəvi gözəllikdir, sevgidir. Belə bir anlamla yaşanan hiss-duyğular ülvidən də ülvidir...

Bəşər övladının yaraşığı, naxışı rəngarəngdir: xeyirxahlıq, insansevərlik, humanizm, düzlük, sədaqət, saflıq, mədəni davranış, etika, şəfqət, mərhəmət... Bir-birini duymaq, anlamaq, dəyərləndirmək...

Bir vaxtlar hələ anlmadığım hansısa bir qüvvə məni xoş bir hissin cazibəsində nələrinsə axtarışına çəkib aparırdı. Hər yerdə və hər şeydə axtardığım, bəzən də az-azcıq duyduğum gözəllik, saflıq (xəyalımda yaşadıqlarımla birgə!) məni yarımçıqlığın dərininə getməyə qoymurdu. İçimdə doğulan işıq məndə həyata əsrarlı bir maraq oyadırdı. Gözümdən-könlümdən çəkilməyən mənəvi gözəlliyin işığı dünyamı çıraqban etmişdi. Hər kəsi, hamını işıqlı, gözəl görmək istəyirdim. Elə bilirdim, axtarışında olduğum bu gözəllik, zənginlik bir addımlığımdadı, duyunca sarılacam ona. Təəssüf...

İndi bunları acı bir nisgillə xatırlasam belə, heç üzülmürəm, həyatımdan da rəncidə deyiləm, Bu, ömürdür, taledir, belə bir zənginlik, mənəvi varidat hamıya nəsib olmur ki! Qarşıma çıxmadısa da nə qəm, o zənginlik, gözəllik daxilimdə topa işıq kimidi. Məni yaşadan, yazıb-yaratmağa ruhlandıran İşıq... Tanrının bu lütfünə şükranlığım Onun əbədi olan dərgahınacandır...

Qəlbin aynası - səmimiyyət

Çoxumuz səmimiyyətin ehtiva etdiyi dəyərləri dərindən dərk etmədən, mənasına varmadan yeri gəldi, gəlmədi, "mən səmimiyəm", deyirik. Fərqində deyilik ki, bu ali duyğunu olduğumuz, göründüyümüz yerlərdə insanlarla ünsiyyətimizdə, münasibətimizdə, əməlimizdə göstərə bilirikmi?

Bir anlayış, fikir kimi, maraqlıdır: səmimiyyət nədir, o özünü necə nişan verir...

Səmimiyyətin malik olduğu xüsusiyyətlər də mənəvi gözəlliklə bağlıdır. O, ilk növbədə özünü insanın qəlbinə, varlığına saçılan işıq timsalında göstərir. Səmimiyyət mənəviyyatın kompasıdır, onun istiqamətini tutub yol gedən insanın uğuruna xeyir çıxar, həyatı yaxşılıqlarla, gözəlliklə süslənər...

Səmimiyyət əxlaqdır. Davranışda, ünsiyyətdə bunu duymaq çətin deyil. Yüksək əxlaqi keyfiyyətlərə malik olmaq cəmiyyətdə rəğbətlə, sevgilə qarşılanır, onun daşıyıcısı tutduğu mövqeyindən, yaşından-başından asılı olmayaraq istinad, nümunə yeri olur: filankəs çox əxlaqlı adamdır...

Səmimiyyət mehribanlıqdır, ülfətdir. Bunlar olan yerdə rahatlıq var. Belədə yaşamaq, həyatı duymaq adama zövq verir. Səmimiyyət mədəniyyətdir. O, insanlara yüksək zövq, həssaslıq aşılayır. Onları bir-birilə ehtiramlı, sayqılı rəftara sövq edir.

Səmimiyyət nəciblikdir. İnsanın təbiətində olan alicənab, saf, ülvi, müqəddəs hisslərin məcmusudur.

Səmimi insan düzlüyün, ədalətin, həqiqətin aşiqidir. O, yalanı, riyakarlığı sevmir, adamlarla münasibətində, davranışında, əməlində səhvini etiraf etməkdən mənəvi dinclik tapır.

Yaşam boyu səmimiyyətin o qədər çalarları yaranır ki! Mənə görə bütün yaxşılıqların anası səmimiyyətdir, qəlbin aynası səmimiyyət...

Mədəniyyətin ali məqamı - etiraf

İnsanda təbii olan hər şey doğaldır, həm də gözəl. Uca Yaradanın lütfü olan və insanın da müdaxilə etmədiyi, əl gəzdirmədiyi xarici görünüşdən başlamış, daxili aləminə məxsus olan keyfiyyətlərinə qədər.

Çeşmənin gözündən axan dumduru, büllur, saf suya bənzər hal-xasiyyət kimi. Hiss və duyğuların xəfif bir titrəyişlə oyanışı, bu məqamda gülün tər-təzə ləçəklərinə toxunan ilk nəfəs təki... Bu gözəlliyi, paklığı duyaraq ürəkdolusu yaşamaq, etiraf etmək bəxtiyarlıqdır!

Bir də var, insanın özündən başlamış, ailəsi, dostu, yoldaşı - ümumən onu əhatə edən cəmiyyətə etirafı. Nədən qaynaqlanır, hansı zərurətdən yaranırsa yaransın, bütün hallarda etiraf etmək insanın kin-küdurətdən, riyadan-yalandan, göz-götürməzlikdən, paxıllqdan... azad olması, təmizlənib durulmasıdır. Əgər, bunu bacarırıqsa, nə xoş bizlərə!

Etirafı incəliyinə qədər dərk etməyin yolu qəlbimizdən keçir: əxlaqımızın, mədəniyyətimizin, etik davranışımızın mövcudi məcmusundan. Ən ümdəsi, mənəviyyat aynasında qüsurumuzu, günahımızı görür və etiraf etməyi bacarırıqsa, eşq olsun bizi doğan analara!

Etiraf qəlb rahatlığıdır. Peşmançılıq ürəyindən dəyirman daşı kimi sallanıbsa, ondan azad olmaq - səhvini etiraf etmək dünyaya təzədən gəlmək kimidir...

Etirafın bir naxışı da ləyaqətdir. "Mən"in daşıdığı ləyaqət və səmimiyyətin meyarı etiraf... Varsa bunlar, hər addımda ona hazır olmalıyıq. İki şəxsin arasında olan ixtilafın yaratdığı küskünlük, anlaşmaya imkan verməyən eqo etirafın qarşısında maneədir, keçilməz səddir. Hətta, dövlətlər arasında mədəni əlaqələrin inkişafına əngəl olan, ona xələl gətirən iddialı münasibətlərin, düşmənçiliyin aradan qaldırılmasında belə, etiraf xalqlar arasında əmin-amanlığın qarantıdır.

Etiraf ailələr, tayfalar, dövlətlər, cəmiyyətlər arasında sülhün təntənəsidir. Əl-ələ verib şərə, böhtana, acılara birlikdə qalib gəlməyin ipək yoludur.

Etiraf tərəflər arasında əyilməyən, sarsılmayan, sınmayan dostluqdur. Əgər bircə yol ona sarı gəldinsə, niyyətinə, istəyinə işıq çilədinsə, dost özünün şəfqəti, mərhrəməti, xeyirxahlığı ilə hər zaman yanındadı.

Etiraf etmək təbiəti, insanları sevərək, həzzi duyaraq yaşamaqdır. Bunu bacarırıqsa, aləm gözümzdə başdan-başa işıqdır, gözəllikdir, gözəllik...

Demək ki etiraf bütün sevgilərin açarıdır, özü də qızıl açarı...

***P.S.*** Yağışdan sonra göy üzü durulur, az sonra Günəş doğur, zərrin şəfəqlər bütün aləmə səpələnir, yer üzü gözəlliklə süslənir. Bu ılıq təmas bütün canlıları ehtizaza gətirir. İnsan həyatının fövqündə ömrə zinət, təravət, lətafət bəxş edən duyğular oyanır. Bütün bunlar romantika, səmimiyyət və mənəvi gözəlliyin etirafı, deyil, bəs nədir...